UOT 327
https://doi.org/10.30546/3006-0346.2025.3.87.509

# QAFQAZ EVİ İDEYASI: GERÇƏKLƏŞƏN ARZU, YOXSA ƏBƏDİ XƏYAL

**GÜLGÜN QULİYEVA**
*Diplomatiya və müasir inteqrasiya prosesləri kafedrası, siyasi elmlər üzrə fəlsəfə doktoru*
*E-mail-gulgun2004@mail.ru*

## Giriş

Qafqaz evi ideyası, regionun müxtəlif xalqlarını və mədəniyyətlərini bir araya gətirmək, regional əməkdaşlığı və inteqrasiyanı gücləndirmək məqsədi daşıyır. Lakin bu ideyanın gerçəkləşməsi, həm regiondakı siyasi və iqtisadi vəziyyəti, həm də beynəlxalq münasibətlərdəki dinamikanı nəzərə alaraq, çətin bir proses kimi görünür. Tarixin müxtəlif mərhələlərində bir-birilə ağır müharibələr aparmış Almaniya və Fransa kimi dövlətlərin Avropa Kömür və Polad Birliyi çərçivəsində iqtisadi əməkdaşlığa əsaslanan birliyə daxil olaraq qarşılıqlı düşmənçilikdən strateji tərəfdaşlığa keçməsi, regional inteqrasiyanın münaqişələrin aradan qaldırılmasında necə mühüm rol oynaya biləcəyini göstərən nümunəvi bir presedentdir [13]. Əgər oxşar yanaşma – qarşılıqlı etimad, iqtisadi asılılığın artırılması və institusional əməkdaşlıq – vaxtında Cənubi Qafqazda da təşviq edilsəydi və Ermənistanla Azərbaycan arasında Qafqaz evi çərçivəsində real əməkdaşlıq mühiti qurulsaydı, bu, uzunmüddətli münaqişənin qarşısını ala və sülhün möhkəmlənməsinə zəmin yarada bilərdi.

**Tarixi və Mədəni Kontekst** Cənubi Qafqaz regionu – Azərbaycan, Ermənistan və Gürcüstan – tarixi baxımdan müxtəlif imperiyaların təsiri altında olmuş, etnik, dini və mədəni baxımdan zəngin və çoxşaxəli bir coğrafiya kimi formalaşmışdır. Regionun bu mürəkkəb etno-mədəni strukturu həm əməkdaşlıq imkanlarını, həm də qarşıdurma risklərini artıran amillərdən biri olmuşdur. Xüsusilə XIX əsrin sonlarından başlayaraq Rusiya imperiyasının, daha sonra Sovet İttifaqının idarəetmə siyasətləri nəticəsində süni sərhədlər və etnik qarşıdurmalar regionda dərinləşmişdir [15].

Qafqaz evi ideyasının formalaşması üçün region xalqları arasında ortaq mədəni dəyərlərin mövcudluğu mühüm əsaslardan biri kimi qiymətləndirilə bilər. Qafqaz xalqları arasında musiqi, folklor, ailə modeli və sosial strukturlar kimi sahələrdə müşahidə edilən oxşarlıqlar, mədəni diplomatiyanın və "yumşaq güc" vasitələrinin tətbiqi üçün mühüm potensial yaradır [16]. Lakin bu potensial, siyasi iradə və institusional mexanizmlərlə dəstəklənmədikdə, uzunmüddətli barış və inteqrasiya üçün kifayət etməmişdir.

Tarixi təcrübə onu göstərir ki, mədəni yaxınlıq və ortaq tarixi keçmiş yalnız müəyyən şərtlər daxilində əməkdaşlığa çevrilə bilər. Belə ki, Avropa İttifaqı təcrübəsində olduğu kimi, ortaq mədəni köklər siyasi struktur və iqtisadi mexanizmlərlə tamamlandıqda sülhə real zəmin yaradır. Qafqaz evi ideyasının reallaşması da yalnız bu tarixi və mədəni yaxınlığın düzgün strateji çərçivəyə salınması ilə mümkün ola bilər. Qafqaz regionu zəngin mədəniyyətə, tarixi və etnik müxtəlifliyə malikdir. Lakin uzun müddət ərzində bu müxtəlifliklər siyasi və sosial gərginliklərə səbəb olub.

**Siyasi Mühit və Maneələr:** Qafqazda fəaliyyət göstərən dövlətlərin xarici siyasətləri, bir-biri ilə rəqabət edən güclərin təsiri, müharibələr və münaqişələr regionda birliyə doğru atılacaq addımları əngəlləyir. Ermənistan-Azərbaycan münaqişəsi, Gürcüstanın separatçı bölgələri və Rusiya ilə olan əlaqələr, regional əməkdaşlığı çətinləşdirən amillərdir. Bu vəziyyət, Qafqaz evi ideyasının reallaşmasını sual altına alır.

**Regional İnteqrasiya Cəhdləri:** Son illərdə Cənubi Qafqazda bəzi regional əməkdaşlıq təşəbbüsləri mövcud olub. Cənubi Qafqaz regionunda regional inteqrasiya təşəbbüsləri tarixən fraqmentar və nəticəsiz olmuşdur. SSRİ-nin dağılmasından sonra yaranan geosiyasi boşluq bu ölkələrin müxtəlif xarici aktorların təsir dairəsinə düşməsinə səbəb olmuş və region daxili əməkdaşlığı çətinləşdirmişdir. Azərbaycan, Ermənistan və Gürcüstan bir sıra çoxtərəfli təşəbbüslərdə iştirak etsələr də, bu təşəbbüslər dayanıqlı və institusional çərçivəyə əsaslanmadığı üçün uğur qazanmamışdır [12].

Məsələn, 1997-ci ildə yaradılmış GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) təşkilatı regional əməkdaşlıq üçün platforma kimi nəzərdə tutulsada, Ermənistanın bu birlikdən kənarda qalması və üzv ölkələrin fərqli geosiyasi prioritetləri qurumu passivləşdirmişdir [11]. Cənubi Qafqazda regional inteqrasiyanın qarşısını alan əsas amillərdən biri də Ermənistan-Azərbaycan münaqişəsi olmuşdur. Münaqişənin kəskinləşməsi həm ikitərəfli

əməkdaşlıq imkanlarını məhdudlaşdırmış, həm də regional etimadın formalaşmasını əngəlləmişdir. Gürcüstan isə regiondaxili əməkdaşlığa meyilli olsa da, Qərb yönümlü siyasəti və Rusiya ilə münasibətləri fonunda balanslı vasitəçi rolunu tam reallaşdıra bilməmişdir [8].

Qafqaz evi ideyasının gerçəkləşməsi üçün həm daxili siyasi iradə, həm də beynəlxalq dəstək lazımdır. Qafqaz xalqları arasında etimad və dialoqun qurulması, iqtisadi əlaqələrin genişlənməsi və ortaq maraqların formalaşması zaman alacaq bir prosesdir. Lakin, bu ideya əbədi xəyal olaraq qalmaq yerinə, addım-addım gerçəkləşə bilən bir məqsəd də ola bilər, xüsusən də regiondakı siyasi gərginliklər azaldıqca və əməkdaşlıq imkanları genişləndikcə.

## Tarix

Qafqaz evi ideyasının tarixi kökləri, regionun tarixi, mədəni və siyasi inkişafına, həmçinin müxtəlif dövrlərdə bu ərazidə formalaşan regional əməkdaşlıq və qarşılıqlı əlaqələrlə bağlıdır. Bu ideya, əsasən Cənubi Qafqazda yaşayan xalqların birgə əməkdaşlıq etməsi, sülh və sabitlik şəraitində birgə yaşaması ilə bağlıdır. Qafqaz evi ideyasının arxasında duran əsas prinsip, müxtəlif etnik və dini qrupların bir arada, qarşılıqlı hörmət və əməkdaşlıq şəraitində yaşaması və inkişaf etməsidir. Bu ideyanın tarixi kökləri bir neçə əsas mərhələyə əsaslanır. Tarixi təcrübələr göstərir ki, regional inteqrasiya və iqtisadi asılılığın artırılması bir vaxtlar düşmən olan dövlətlər arasında davamlı sülhün formalaşmasında mühüm rol oynaya bilər. Avropa nümunəsi xüsusilə əhəmiyyətlidir: XX əsrin ilk yarısında iki dünya müharibəsinin əsas aktorları olmuş Almaniya və Fransa kimi dövlətlər, Avropa Kömür və Polad Birliyi (AKPB) vasitəsilə iqtisadi resursların birgə idarə olunmasına razılaşaraq həm qarşılıqlı etimad mühiti yaratmış, həm də daha geniş Avropa inteqrasiya prosesinin əsasını qoymuşlar [13]. Bu yanaşma, müharibəni qeyri-mümkün deyil, məqsədsiz və düşünülməz edən bir qarşılıqlı asılılıq modeli ilə əvəz etmişdir [14].

Əgər Qafqaz evi ideyası real məzmun kəsb edərək Ermənistan, Azərbaycan və Gürcüstan arasında etimadın formalaşmasına, ticarət və enerji əməkdaşlığının dərinləşməsinə səbəb olsaydı, bu, tədricən siyasi dialoqu da stimullaşdıra bilərdi. Qafqaz evi yalnız mədəni birlik və ortaq dəyərlər ideyası deyil, eyni zamanda regionda müharibəni iqtisadi və siyasi cəhətdən sərfəsiz edən bir struktur yaratmaq üçün potensial vasitə ola bilərdi. Lakin mövcud reallıqda, xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinin silahlı müstəviyə keçməsi və davamlı sülh mexanizmlərinin zəifliyi bu ideyanın praktiki reallaşmasının qarşısını almışdır. Beləliklə, Avropa təcrübəsi Cənubi Qafqaz üçün həm ilham mənbəyi, həm də strateji dərs kimi qiymətləndirilə bilər: davamlı sülh yalnız siyasi bəyanatlarla deyil, strukturlaşdırılmış əməkdaşlıq və qarşılıqlı maraqlara əsaslanan institusional inteqrasiyanın qurulması ilə mümkündür.

**Cavanşir Dövrü və Qədim Zamanlar:** Qafqaz, qədim dövrlərdən etibarən müxtəlif sivilizasiyaların və imperiyaların təsiri altında olmuş bir ərazi olub. Bu regionda qədim dövlətlər, o cümlədən Urartu, Albaniya, Kolxida və İberiya dövlətləri mövcud olmuşdur. Bu dövlətlər, həm ticarət, həm də mədəniyyət sahəsində bir-biri ilə əlaqə saxlamışlar. Cavanşir dövrü (X əsr) və sonrakı dövrlərdə regionda müxtəlif xalqların arasında əməkdaşlıq, inteqrasiya və müttəfiqlik cəhdləri olmuşdur. Lakin, bu cəhdlər tez-tez xarici təzyiqlər və daxili münaqişələr səbəbindən uğursuzluğa uğramışdır.

**Çar Rusiyası və Osmanlı İmperiyası Dövrü:** XIX əsrin ortalarında Çar Rusiyası və Osmanlı İmperiyasının Qafqazda təsiri artmağa başladı. Bu dövrdə Qafqaz, bir çox etnik və dini qrupların yaşadığı, həmçinin regional güclərin maraqlarının toqquşduğu bir yerə çevrildi. Çar Rusiyası və Osmanlı İmperiyası bu ərazidə bir-birinin təsirinə qarşı mübarizə aparırdılar. Lakin bu dövrün sonunda çar Rusiyası, Qafqazı tamamilə öz təsiri altına alaraq, burada müxtəlif xalqların arasında müəyyən siyasi və iqtisadi əlaqələr formalaşdırmağa çalışdı. Bu dövrün sonunda, xüsusən Cənubi Qafqazda, regiondakı xalqların bir-birinə yaxınlaşması və regional əməkdaşlıq məsələləri ön plana çıxdı. Lakin imperiya siyasətləri, çox vaxt bu əməkdaşlıqları məhdudlaşdırdı və regiondakı xalqlar arasında etnik və dini gərginliklərə səbəb oldu.

**Sovet İttifaqı Dövrü:** Sovet dövrü, Qafqaz regionu üçün həm müsbət, həm də mənfi tərəfləri olan bir dövr idi. Sovet İttifaqı altında, Qafqaz xalqları birləşdirilərək sosialist ideologiyası və mərkəzi hakimiyyət altında birgə yaşadılar . Bu dövr, bir tərəfdən Qafqaz xalqlarının iqtisadi və sosial inkişafını təmin etdi, digər tərəfdən isə bu xalqlar arasında bir çox etnik, dini və siyasi problemləri arxa plana atdı. Qafqazda müxtəlif xalqların birgə yaşaması, həm də sovet ideologiyası ilə bağlı olaraq, müəyyən bir inteqrasiya dövrü yaratdı. Lakin Sovet İttifaqı dağıldıqdan sonra, bu regionda yeni siyasi sərhədlər və müstəqil dövlətlər yarandı. Xüsusilə 1990-cı illərdə, Qarabağ müharibəsi və digər ərazi münaqişələri nə-

ticəsində, regionda böyük bir etnik və siyasi parçalanma baş verdi. Bu, Qafqaz evi ideyasının reallaşmasını çətinləşdirən amillərdən biri oldu.

**Müstəqil Dövlətlər və Yeni Regional Əməkdaşlıq Cəhdləri (1990-cı illərdən sonra):** Sovet İttifaqının dağılmasından sonra, Cənubi Qafqazda Azərbaycan, Ermənistan və Gürcüstan ğz müstəqiliklərini yenidən bərpa etdilər. Bu dövrdə, hər üç ölkə, öz suverenliklərini qorumaq və beynəlxalq aləmdə tanınmaq üçün müstəqil siyasətlər həyata keçirdi. Lakin regionda, həm də müxtəlif ərazi münaqişələri, xüsusən Qarabağ müharibəsi, Gürcüstanın separatçı bölgələri ilə bağlı gərginliklər və digər münaqişələr, Qafqaz xalqlarının birgə əməkdaşlıq etməsini çətinləşdirdi.

**Günümüzdəki Yanaşmalar və Qafqaz Evi İdeyasının Yeri:** Qafqaz evi ideyasının reallaşması hələ də çətin bir məqsəd olaraq qalır, çünki regional münaqişələr, siyasi qeyri-sabitlik və xarici güclərin müdaxilələri bu ideyanın həyata keçirilməsinə maneə törədir.

## Əsas hissə

### Qafqaz Evinin Konsepti və Əsas Prinsipləri:

Qafqaz Evi, Cənubi Qafqaz regionundakı üç əsas dövlət — Azərbaycan, Ermənistan və Gürcüstan — arasında sülh, əməkdaşlıq və inkişafı təşviq etmək məqsədilə təklif edilən bir platformadır. Bu ideya, bölgədəki siyasi və iqtisadi qarşıdurmaların qarşısını almaq, regional təhlükəsizliyi gücləndirmək və uzunmüddətli sabitliyi təmin etmək üçün birgə fəaliyyət göstərməyi hədəfləyir. Qafqaz Evinin əsas məqsədi, müxtəlif milli maraqların və tarixi münaqişələrin nəticəsində yaranan gərginliyi azaltmaq və dövlətlər arasında qarşılıqlı faydalı əməkdaşlığı təşviq etməkdir. Bu konseptin ən mühüm prinsiplərindən biri, bölgədəki dövlətlərin suverenliyinə hörmət və bərabərlik prinsipidir. Hər bir dövlətin özünəməxsus milli maraqları olsa da, Qafqaz Evi bu maraqları balanslaşdırmağa və hər bir ölkənin təhlükəsizliyini təmin etməyə çalışacaq.

### Qafqaz Evinin Qarşılaşa Biləcəyi Çətinliklər və Maneələr:

Qafqaz Evinin reallaşması ideyası, regionun mürəkkəb və çoxşaxəli geosiyasi vəziyyəti fonunda bir sıra çətinliklərlə qarşılaşa bilər. Cənubi Qafqaz, müxtəlif etnik qrupların, dini və mədəni fərqliliklərin mövcud olduğu, habelə uzun illər davam edən münaqişələrdən əziyyət çəkən bir bölgədir. Bu səbəbdən, Qafqaz Evi təşəbbüsünün uğurla həyata keçirilməsi üçün bir neçə əsas çətinlik nəzərə alınmalıdır.

**Tarixi və Etnik Münaqişələr:** Cənubi Qafqazda mövcud olan tarixi münaqişələr, xüsusilə Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi, bu təşəbbüsün reallaşmasını çətinləşdirən əsas amillərdən biridir. Hər iki tərəf, tarixi ədalət və ərazi bütövlüyü məsələlərində qəti mövqelər tuturlar. Həmçinin, Gürcüstanın da Abxaziya və Cənubi Osetiya ilə bağlı ərazi mübahisələri mövcuddur ki, bu da bölgədəki hərtərəfli əməkdaşlıq üçün əlavə maneə yaradır.

**Regional Güc Birliyi:** Cənubi Qafqaz, yalnız bölgə ölkələrinin deyil, həm də xarici güc mərkəzlərinin maraqlarına təsir göstərən bir regiondur. Rusiya, Türkiyə və İran kimi ölkələrin burada mövcud olan geosiyasi təsiri, Qafqaz Evinin inkişafına mənfi təsir edə bilər. Xüsusilə, Rusiya və Türkiyə arasında Cənubi Qafqazda güc və nüfuz mübarizəsi mövcuddur. Rusiya, bölgədəki ən böyük güc olaraq, Qafqaz Evi ideyasının öz strateji maraqlarına zidd olmaması üçün səylərini davam etdirəcək. Digər tərəfdən, Türkiyə, xüsusilə Azərbaycanın tərəfdaşı olaraq, bu təşəbbüsün regional təhlükəsizliyə töhfə verməsi üçün daha aktiv bir rol oynamağa çalışacaq. Bu iki ölkə arasındakı maraqların kəsişməsi və toqquşması, Qafqaz Evinin uğurlu fəaliyyətini çətinləşdirə bilər.

**İqtisadi və İnfrastruktur Problemləri:** Bölgənin iqtisadi potensialı və infrastrukturunun zəifliyi, Qafqaz Evi konseptinin tətbiqi üçün əlavə çətinliklər yarada bilər. Bölgə, müharibələrdən və siyasi qeyri-sabitlikdən əziyyət çəkmişdir. Bu səbəbdən, ortaq iqtisadi layihələrin həyata keçirilməsi və birgə infrastruktur inkişafı məsələsində ciddi çətinliklər mövcuddur. İqtisadi əməkdaşlıq üçün tələb olunan maliyyə resursları və siyasi iradə, bəzən regional liderlər arasında razılıq əldə etməkdə maneə yarada bilər.

**Daxili Siyasi Sabitlik və Etimad Problemləri:** Qafqazdakı hər üç ölkədə daxili siyasi sabitlik və hakimiyyətin möhkəmliyi, Qafqaz Evinin qurulmasına və inkişafına təsir edə bilər. Azərbaycan, Ermənistan və Gürcüstan arasında etimad səviyyəsinin aşağı olması, bu təşəbbüsün uğurla həyata keçirilməsini çətinləşdirir. Dövlətlərarası münasibətlərdəki qeyri-müəyyənliklər, liderlərin müxtəlif xarici siyasət yönümləri və daxili siyasi təzyiqlər, əməkdaşlıq üçün müsbət bir atmosferin yaranmasına mane ola bilər.

**Beynəlxalq Təsirlər və Rəqabət:** Beynəlxalq

güc mərkəzləri, xüsusilə ABŞ, Avropa İttifaqı, İran və Çin, Cənubi Qafqazda öz maraqlarını təmin etmək üçün müxtəlif strategiyalar həyata keçirirlər. Bu ölkələr və qurumlar, Qafqaz Evi təşəbbüsünün inkişafına müxtəlif şəkildə təsir göstərə bilərlər. Hər bir xarici güc, öz strateji maraqlarını nəzərə alaraq, regional inteqrasiyaya təsir edə bilər. Bu fakt, həmçinin bölgənin zəif iqtisadi və təhlükəsizlik infrastrukturu ilə yanaşı, bu təşəbbüsün qarşısında dayanan ən böyük maneələrdən biridir.

**Qafqaz Evinin Gələcək Perspektivləri və Mümkün Həll Yolları:**

Qafqaz Evi ideyasının qarşılaşdığı çətinliklərə baxmayaraq, bölgədə sülh və əməkdaşlıq üçün bir potensial yaradılmaqdadır. Bu təşəbbüsün həyata keçirilməsi, yalnız regional dövlətlərin deyil, həm də beynəlxalq güc mərkəzlərinin dəstəyi ilə mümkündür. Müxtəlif çətinliklərə baxmayaraq, Qafqaz Evi konsepti, Cənubi Qafqazın gələcəyinə dair ümidverici perspektivlər aça bilər.

**1. Diplomatik İrəliləyiş və Etimadın Artırılması:** Regionda mövcud olan tarixi münaqişələr və etnik gərginliklər nəzərə alındıqda, dövlətlər arasında qarşılıqlı etimadın yaranması vacibdir. Bu məqsədlə, tərəflər arasında görüşlərin tez-tez keçirilməsi və açıq dialoq kanallarının yaradılması təklif edilir. Regional münaqişələrin həlli ilə bağlı praktiki yanaşmalar və uyğun diplomatik formatlar, Qafqaz Evi ideyasının reallaşmasına şərait yaradacaqdır.

**2. İqtisadi və İnfrastruktur Əməkdaşlığı:** Regiondakı ölkələrin birgə iqtisadi layihələrə yönəlməsi, əməkdaşlığın genişlənməsi və dayanıqlı inkişafın təmin edilməsi üçün vacibdir. Bölgədəki hər üç ölkə, xarici sərmayə cəlb etmək, ticarət və iqtisadi əlaqələri gücləndirmək üçün ortaq layihələr üzərində işləyə bilər. Bu layihələrə enerji, nəqliyyat və kommunikasiya sahələrindəki əməkdaşlıq daxil ola bilər. Məsələn, Transqafqaz Nəqliyyat Dəhlizi və Böyük İpək Yolu kimi strateji layihələr, Cənubi Qafqazda iqtisadi bağlılığın artırılmasına və qarşılıqlı etimadın qurulmasına imkan verəcəkdir. İqtisadi əməkdaşlıq, həmçinin bölgə ölkələrinin gələcəkdəki inteqrasiyasının əsasını təşkil edəcəkdir.

**3. Beynəlxalq Dəstək və Təşviq:** Qafqaz Evinin uğurlu tətbiqi üçün beynəlxalq dəstək çox vacibdir. Bölgənin geosiyasi əhəmiyyəti nəzərə alındıqda, ABŞ, Avropa İttifaqı, Rusiya və Türkiyə kimi regional və qlobal güc mərkəzləri bu təşəbbüsə öz dəstəklərini göstərə bilər. Bu dəstək yalnız diplomatik sahədə deyil, həm də iqtisadi və humanitar sahələrdə mövcud olmalıdır. Beynəlxalq təşkilatlar və maliyyə qurumları, xüsusilə Dünya Bankı, Avropa İnvestisiya Bankı və Beynəlxalq Valyuta Fondu, bölgə ölkələrinə iqtisadi dəstək verə bilər və infrastruktur layihələrini maliyyələşdirə bilər.

**4. Tərəflər Arasında Həmrəylik və Regional Təhlükəsizlik İttifaqı:** Regional təhlükəsizliyi təmin etmək məqsədilə, Qafqaz Evi ideyasının bir parçası olaraq təhlükəsizlik ittifaqları və kooperasiya şəbəkələri qurulmalıdır. Bölgə ölkələri, terörizm, narkotik ticarəti, insan alveri və digər regional təhlükələrə qarşı birgə mübarizə aparmaq üçün əməkdaşlıq etməlidir. Bu əməkdaşlıq, Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsinə kömək edəcəkdir. Təhlükəsizliyi təmin edəcək güc strukturları, həmçinin, Rusiya, Türkiyə və İran kimi güc mərkəzlərinin maraqlarını balanslaşdırmaq üçün beynəlxalq əməkdaşlığı da ehtiva edə bilər.

## Cümhuriyyət Dönəmində Qafqaz Evi Uğrunda Mübarizə: Konfranslar və Təşəbbüslər

1918-ci ilin fevralında, Rus İmperiyasının süqutundan sonra, Azərbaycan, Gürcüstan və Ermənistan arasında "Qafqaz Federasiyası" adlı birgə dövlət quruluşu yaradıldı [1] . Bu federasiya, üç ölkənin müstəqilliklərini qorumaq və birgə fəaliyyət göstərmək məqsədini daşıyırdı. Lakin, 26 may 1918-ci ildə Gürcüstanın müstəqilliyini elan etməsi ilə federasiya süqut etdi.

Qafqaz Evi" ideyası, XIX əsrdə Mirzə Fətəli Axundov tərəfindən irəli sürülmüş və sonralar Azərbaycan Xalq Cümhuriyyəti dövründə dəstəklənmişdir. Bu ideya, Azərbaycan, Ermənistan və Gürcüstan arasında regional əməkdaşlıq və birliyin təşviqini nəzərdə tuturdu. Lakin, Ermənistanın münaqişə və separatizm siyasəti səbəbindən bu ideya reallaşmadı.

## "Qafqaz evi" ideyası və Əlimərdanbəy Topçubaşov

Əlimərdanbəy Topçubaşov, XX əsrin əvvəllərində Azərbaycanın tanınmış siyasi xadimi, diplomat və milli ideoloqlarından biri olaraq, Qafqazın gələcəyinə dair çox mühüm ideyalar irəli sürmüşdür. O, bir tərəfdən, Azərbaycanın müstəqilliyini təmin etmək üçün çalışarkən, digər tərəfdən, Qafqazın müxtəlif xalqlarının birgə əməkdaşlıq və həmrəyliyinin vacibliyini də vurğulamışdır. Bu baxımdan, Qafqaz evi ideyası, əslində, Topçubaşovun siyasi və diplomatik mübarizəsinin bir hissəsi kimi də qiymətləndirilə bilər.

Əlimərdanbəy Topçubaşov, Qafqaz xalqlarının bir arada yaşaması və bir-biri ilə dost münasibətlər

qurmasını dəstəkləyirdi. O, Azərbaycan, Gürcüstan və Ermənistanın – mədəni və siyasi müxtəlifliklərini nəzərə alaraq, bu xalqlar arasında əməkdaşlıq və qarşılıqlı hörmətin vacibliyini önə çəkmişdir. Topçubaşov, Qafqazda birliyə gedən yolda etnik, dini və milli mənsubiyyətlərin müxtəlifliyini qəbul edən bir yanaşmanı müdafiə edirdi. Topçubaşov, 1917-ci il Rus İmperiyasının süqutundan sonra Qafqazın müstəqil dövlətlər halında birləşə biləcəyini düşünürdü. O, müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasında və Cənubi Qafqazın yeni siyasi düzəninə uyğun müstəqil dövlətlər arasında əməkdaşlığın vacibliyini vurğulamışdır. Topçubaşovun beynəlxalq diplomatiya sahəsindəki fəaliyyəti, Qafqazın gələcəyində əməkdaşlıq və qarşılıqlı dəstək üzərində qurulmuş bir regional sistemin mümkünlüyünü göstərirdi.

Topçubaşov, Qafqazın xarici güclərin təsiri altına girməməsi üçün bu regiondakı xalqlar arasında bir həmrəylik və qarşılıqlı yardım sisteminin qurulmasının vacibliyini önə çəkirdi. O, Rusiya, Osmanlı və digər xarici qüvvələrin Qafqazdakı təsirini balanslaşdırmaq məqsədilə regional güclərin birləşməsini təklif edirdi. Bu yanaşma, Qafqazın strateji mövqeyindən istifadə edərək, regiondakı xalqların və dövlətlərin öz gələcəklərini müəyyən etməyə çalışması anlamına gəlirdi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin qurulması ilə bu ideyalar daha da aktuallaşdı. Qafqazın üç dövlətinin müstəqil şəkildə inkişaf etməsi və regional əməkdaşlıq edərək, mədəni və iqtisadi əlaqələr qurması, Topçubaşovun idealına uyğun bir yanaşma idi. Ancaq, Topçubaşovun idealı müstəqil və demokratik bir Qafqazın formalaşmasına yönəlik olsa da, onun dövründəki siyasi gərginliklər və xarici təzyiqlər, xüsusən Ermənistan və Azərbaycan arasındakı münaqişə, bu ideyanın reallaşmasına mane olmuşdur. Lakin onun Qafqaz xalqlarının birgə əməkdaşlığını təbliğ etməsi, uzun müddət sonra belə, bu regionda inteqrasiya və əməkdaşlıq məsələlərinin önəmini artırmışdır.

1921-ci ilin mayında, Parisdə mühacirət nümayəndələri tərəfindən "Qafqaz Konfederasiyası" adlı yeni bir təşəbbüs irəli sürüldü. Bu təşəbbüs, Azərbaycan, Gürcüstan, Ermənistan və Şimali Qafqazın birgə əməkdaşlıq etməsini nəzərdə tuturdu. Fransa və İngiltərə kimi böyük dövlətlər bu təşəbbüsü dəstəklədi və mühacirət liderlərinə maliyyə yardımı ayırdı. Lakin, bu ideya da Sovet hakimiyyətinin təsiri altında reallaşmadı. 1952-ci ilin dekabrında, Almaniyanın Münhen şəhərində "Ümumqafqaz Konfransı" keçirildi. Bu konfransda, Qafqaz xalqlarının birgə gələcəyi və Rusiyasız Qafqaz ideyası müzakirə olundu. Məhəmməd Əmin Rəsulzadə bu konfransda fəal iştirak edərək, Qafqazın müstəqil və birgə fəaliyyət göstərən bir region olması üçün təkliflər irəli sürdü. 1935-ci ildə "Qafqaz Federasiyası Şurası" yaradıldı. Bu şura, Azərbaycan, Gürcüstan və Şimali Qafqazın milli təşkilatlarından formalaşmışdı və əsas məqsəd müstəqil Qafqaz Respublikasının elan edilməsi idi. 1940-cı ildə Ermənistan da bu şuraya qoşuldu. Lakin, bu təşəbbüs də Sovet hakimiyyətinin təsiri altında uğursuz oldu [1].

Cümhuriyyət dövründə həyata keçirilən bu konfranslar və təşəbbüslər, Qafqaz xalqlarının birgə gələcəyini qurmaq və regional əməkdaşlığı təşviq etmək məqsədini güdürdü. Lakin, xarici güclərin müdaxiləsi və daxili münaqişələr səbəbindən bu ideyalar reallaşmadı. Buna baxmayaraq, bu təşəbbüslər, Qafqaz xalqlarının birgə gələcəyinə dair ümidləri və ideyaları yaşatdı və müasir dövrdə də bu ideyaların müzakirəsi davam edir.

**Gürcüstanın "Qafqaz evi" ideyasındakı rolu**

Gürcüstan, Qafqaz regionunun siyasi və iqtisadi inkişafında mühüm bir oyunçudur. Bu ölkə, həmçinin "Qafqaz evi" ideyasının reallaşmasında böyük əhəmiyyət kəsb edən bir aktor ola bilər. Gürcüstanın Qafqazda regional əməkdaşlıq, sülh və təhlükəsizlik məsələlərindəki rolu bir neçə aspektdən irəli gəlir: Gürcüstanın “Qafqaz evi” ideyasındakı rolu həm tarixi, həm də müasir baxımdan xüsusi əhəmiyyət daşıyır. Gürcüstan coğrafi mövqeyinə, mədəni plüralizminə və regional inteqrasiya təşəbbüslərində fəallığına görə bu ideyanın həm Sovet dövründə, həm də post-sovet mərhələsində mərkəzi aktorlarından biri hesab edilir.

Gürcüstanın Abxaziya və Cənubi Osetiya ilə bağlı davam edən münaqişələri, onun Qafqaz evi ideyasına inteqrasiyasını çətinləşdirir. Həm Abxaziya, həm də Cənubi Osetiya regionları, Gürcüstanın beynəlxalq hüquqla tanınan sərhədləri daxilində olsalar da, Rusiya tərəfindən tanınan müstəqil respublikalardır. Bu separatçı bölgələr Gürcüstanın öz daxili siyasi stabilliyini qorumasını çətinləşdirir və eyni zamanda regional əməkdaşlığa qarşı maneələr yaradır.

Gürcüstanın "Qafqaz evi" ideyasına münasibəti, xüsusən onun Ermənistanla və Azərbaycanla münasibətlərinə bağlıdır. Gürcüstanın Azərbaycan ilə yaxşı münasibətləri və Ermənistanla olan tarixi gərginlikləri nəzərə alındıqda, bu ideyanın həyata keçirilməsində əsasən müsbət bir yanaşma sərgiləyəcəyi

gözlənilir. Lakin Gürcüstanın mövqeyi, onun təhlükəsizlik maraqları və xarici siyasətindəki dəyişikliklərə görə zamanla inkişaf edə bilər. O, regional əməkdaşlıq təşəbbüslərində iştirak etmək istəyir, lakin bu, əsasən daxili və xarici təzyiqlərdən asılı olacaq.

**Türkiyənin "Qafqaz evi" ideyasına yanaşması**

Türkiyə, Qafqaz regionunun mühüm strateji və tarixi oyunçusudur və onun "Qafqaz evi" ideyasına münasibəti regiondakı siyasi və iqtisadi maraqları ilə sıx əlaqəlidir. Türkiyə, xüsusilə Cənubi Qafqazda və ümumiyyətlə Qafqaz regionunda sülh və sabitliyin təmin edilməsi ilə bağlı fəal rol oynamağa çalışır. Lakin Türkiyənin bu ideyaya yanaşması bir neçə mühüm faktorla müəyyənləşir:

Türkiyə, Ermənistanla tarixən gərgin münasibətlərə malikdir, xüsusilə 1915-ci il hadisələri və sonrakı siyasi gərginliklər bu münasibətləri daha da çətinləşdirib. Lakin son illərdə, xüsusən Qarabağ münaqişəsinin həllindən sonra, Türkiyə ilə Ermənistan arasında müəyyən dialoq və əlaqələrin qurulmasına dair bəzi təşəbbüslər olub. Bu səbəbdən, Türkiyə, Qafqaz evi ideyasını daha çox Azərbaycanın maraqları ilə əlaqələndirərək, regionda əməkdaşlığın inkişafı və sülhün təmin olunmasında fəal rol oynamağa çalışır [11]. Türkiyə, Qafqaz evi ideyasını daha çox Azərbaycanla olan münasibətləri gücləndirmək və bu ölkə ilə iqtisadi, enerji və hərbi əməkdaşlığı artırmaq məqsədilə görür. Azərbaycan üçün Türkiyə, bir növ "təhlükəsizlik təminatçısı" kimi fəaliyyət göstərir, və Türkiyə bu müttəfiqlik münasibətini regional təhlükəsizlik baxımından çox önəmli hesab edir.

Türkiyə, Rusiya ilə olan münasibətlərini balanslı şəkildə qorumağa çalışır, çünki həm strateji, həm də iqtisadi sahələrdə bu iki ölkə arasında əməkdaşlıq var. Lakin, Rusiya ilə yanaşı, Türkiyə də Qafqazda öz nüfuzunu artırmaq istəyir. Türkiyənin Rusiya ilə olan gərginliyi nəzərə alaraq, "Qafqaz evi" ideyasına yanaşması çox ehtiyatla müəyyənləşir. Rusiyanın bu ideyaya qarşı çıxması ehtimalı, Türkiyənin bu təşəbbüsə yalnız sərbəst şəkildə qoşulmasına mane ola bilər. Ancaq Türkiyə, Rusiya ilə müttəfiqlik və əməkdaşlıq prinsiplərinə zidd olmayan, ancaq regionda balanslı və əməkdaşlıq əsasında inkişaf edən bir modelə üstünlük verə bilər.

**Avropa İttifaqı və Cənubi Qafqaz:**

Avropa İttifaqı (Aİ), Cənubi Qafqazda daha çox iqtisadi və siyasi inteqrasiya, demokratik inkişaf və hüquqi dövlətin təmin edilməsi məqsədini güdür. Aİ, Gürcüstan, Azərbaycan və Ermənistanla əlaqələrini daha çox bu prinsiplərə əsaslanaraq qurur. Avropa, bu üç ölkə ilə müxtəlif əməkdaşlıq formatları yaratmış və onlara Avropa perspektivi təqdim etməyə çalışmışdır. Aİ-nin, xüsusən Gürcüstan və Azərbaycanla sıx əlaqələri vardır, çünki bu ölkələr həm enerji, həm də ticarət əlaqələri baxımından Avropa üçün vacibdir. Avropa, "Qafqaz evi" ideyasını, regional əməkdaşlıq və inteqrasiya baxımından müsbət bir inkişaf kimi qiymətləndirə bilər, çünki bu, regionda daha güclü sülh və sabitliyin təmin olunmasına xidmət edə bilər.

**Rusiyanın "Qafqaz evi" ideyasına yanaşması**

Rusiya, Qafqaz regionunda tarixən mühüm bir oyunçu olmuşdur və regionun geosiyasi vəziyyətində böyük təsirə malikdir. Bu səbəbdən, "Qafqaz evi" ideyasının reallaşmasında Rusiya vacib bir amil hesab edilir. Lakin Rusiyanın mövqeyi, həm regiondakı siyasi və iqtisadi maraqları, həm də onun beynəlxalq münasibətlərindəki mövqeyini nəzərə alaraq mürəkkəbdir.

**Geosiyasi və İmperial Maraqlar:** Rusiya, Qafqaz regionunu tarixən öz təsir dairəsi olaraq görmüş və bu regionun strateji əhəmiyyətini daima vurğulamışdır. Qafqaz, həmçinin Rusiyanın Cənubi Qərb sərhədini qorumaq üçün vacib bir regiondur. Rusiyanın Qafqazdakı mövqeyini qorumağa davam etməsi, regional əməkdaşlıq təşəbbüsləri qarşısında ciddi bir əngəl yarada bilər. Rusiyanın Cənubi Qafqazdakı siyasi və hərbi təsiri, bu ideyanın Qərb və digər müttəfiqləri ilə balanslaşdırılması üçün müəyyən çətinliklər yaradır.

**Rusiya və Ermənistan Əlaqələri:** Ermənistan, Rusiya üçün ən yaxın müttəfiqlərindən biridir və Qafqaz regionundakı əsas strateji tərəfdaşıdır. Rusiyanın Ermənistanla olan güclü hərbi və siyasi əlaqələri, onun "Qafqaz evi" ideyasına olan münasibətinə birbaşa təsir göstərir. Rusiya, xüsusilə Qarabağ münaqişəsi kimi məsələlərdə Ermənistanın yanında durmuş və bölgədəki digər güclərlə, o cümlədən Türkiyə və Azərbaycanın maraqları ilə balans qurmağa çalışmışdır. Rusiya üçün Ermənistanın mövqeyinin güclü olması, onun Qafqazda öz nüfuzunu saxlaması üçün əhəmiyyətlidir. Buna görə də, "Qafqaz evi" ideyasının gerçəkləşməsi, Rusiya üçün müəyyən təhlükə təşkil edə bilər, çünki bu ideya bölgədə daha geniş və güclü bir əməkdaşlıq mühiti yaradarsa, Rusiyanın bu müttəfiqlə olan münasibətlərinə təzyiq göstərə bilər.

**Rusiya və Azərbaycan Münasibətləri:** Azərbaycan ilə Rusiya arasında dəqiq balanslı münasibətlər mövcuddur. Azərbaycan, Rusiya ilə iqtisadi və təhlükəsizlik sahələrində əməkdaşlıq edir, lakin o, həm də Avropa və Qərb ilə sıx əlaqələr saxlayır. Bu, Rusiyanın "Qafqaz evi" ideyasına olan yanaşmasını mürəkkəbləşdirir. Rusiya, Azərbaycanı öz orbitində saxlamağa çalışsa da, Azərbaycanın müstəqil xarici siyasəti və Türkiyə ilə strateji əlaqələri Rusiya üçün bir maneədir [5] .

**Rusiyanın Regional Təhlükəsizlik və Hərbi İştirakı:** Rusiya, Qafqazda hərbi mövcudiyyətini gücləndirməkdə davam edir. O, həm də bölgədəki münaqişələrin həllində əsas rol oynayır. Rusiyanın Gürcüstandakı separatçı bölgələrə dəstəyi (Cənubi Osetiya və Abxaziya) və Azərbaycanın Qarabağ məsələsindəki vasitəçilik rolu, onun Qafqazda nəzarətini qorumağa çalışdığını göstərir. Rusiya, Qafqazda hər hansı yeni əməkdaşlıq formatlarının yaratdığı potensial təhlükələri, öz güc balansını itirmə riskini nəzərə alaraq qiymətləndirir.

**Siyasi İradə və Regiondaxili Əməkdaşlıq:** Qafqaz evi ideyasının uğurla reallaşması üçün bu regiondakı dövlətlər arasında siyasi iradə və əməkdaşlıq tələb olunur. Lakin bu, regiondakı mövcud gərginliklər və qarşıdurmalar fonunda çətin ola bilər. Azərbaycanın, Gürcüstanın və Ermənistanın suverenlikləri və ərazi bütövlükləri ilə bağlı müxtəlif yanaşmaları və qarşılıqlı etimadsızlıqları var..

**Ərazi Münaqişələri və Tarixi Miras:** Regionda uzun müddət davam edən ərazi münaqişələri və tarixi gərginliklər, Qafqaz evi ideyasının həyata keçirilməsini çətinləşdirir. Qarabağ münaqişəsinin həlli, xüsusən 2020-ci il müharibəsindən sonra, regionda sabitliyin təmin olunması istiqamətində irəliləyişlər olsa da, bu məsələnin tam həlli hələ də çətindir. Ermənistan və Azərbaycan arasındakı bu cür qarşıdurmalar, Qafqazda tam əməkdaşlığın qurulmasını əngəlləyir.

**Regional İnteqrasiya və Avropaya Yaxınlaşma:** Cənubi Qafqazın gələcəyi, onun Avropa İttifaqı ilə daha yaxın əməkdaşlıq etməsi ilə bağlıdır. Region, Avropa Neighbourhood Policy (ENP) çərçivəsində, həmçinin Şərq Tərəfdaşlığı proqramları vasitəsilə iqtisadi və siyasi inteqrasiya istiqamətində addımlar ata bilər [21]. Bu, Qafqaz Evi təşəbbüsünü yalnız regional deyil, həm də qlobal səviyyədə daha geniş bir əməkdaşlıq modelinə çevirə bilər. Cənubi Qafqazda mövcud olan zəif iqtisadi və infrastruktur şəbəkələrinin inkişaf etdirilməsi, bölgənin Avropaya yaxınlaşmasına kömək edəcəkdir. Barışıq və etimadın bərpası, Cənubi Qafqazda Qafqaz Evi ideyasının uğurlu həyata keçirilməsi üçün həqiqətən ən vacib amillərdən biridir. Bu məqsədlə, barışıq diplomatiyasının gücləndirilməsi, sosial və mədəni əməkdaşlığın təşviqi, və təhlükəsizlik tədbirlərinin birgə inkişafı çox vacibdir. Həmçinin, təhsil və gənclər proqramları ilə xalqlar arasında anlayış və əməkdaşlıq qurulmalıdır. Bu cür təşəbbüslər, uzunmüddətli barışın təmin edilməsi və regionda sabitliyin bərpası üçün əsas rol oynaya bilər.

### Ermənistanın Qafqaz evinə yanaşması

Ermənistanın münaqişə və separatizm siyasəti, "Qafqaz Evi" ideyasının reallaşmasına mane olan əsas amildir. Azərbaycanın Qarabağ bölgəsindəki ərazi bütövlüyünü bərpa etməsi və Ermənistanın bu prosesə qarşı çıxması, regional əməkdaşlığın qurulmasını çətinləşdirir. Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın bu yanaşmasını tənqid edərək, "Qafqaz Evi" ideyasının reallaşmasının zəruriliyini dəfələrlə vurğulayıb. "Qafqaz Evi" ideyasının reallaşması, azərbaycanlılar və ermənilər arasında münasibətlərin normallaşmasına və regional əməkdaşlığın inkişafına şərait yarada bilər. Bu, qarşılıqlı hörmət, etimad və əməkdaşlıq prinsiplərinə əsaslanmalıdır. Lakin, Ermənistanın separatizm siyasətindən imtina etməsi və sülhə sadiq qalması bu prosesin əsas şərtlərindən biridir. Ermənistanın bu təşəbbüslərə münasibəti dəyişkən və müəyyən şərtlərə bağlıdır. Əsas məqamları qeyd etmək olar:

### Siyasi Şərtlər və Qarabağ məsələsi

Ermənistan, xüsusilə 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanla münasibətlərin normallaşdırılması və regionda sabitlik məsələsinə maraq göstərsə də, "Qafqaz evi" kimi platformalara tam açıq yanaşmır. Ermənistan üçün əsas şərtlərdən biri sülh müqaviləsinin imzalanması və ərazi bütövlüyü məsələlərinin qarşılıqlı şəkildə tanınmasıdır.

### "3+3" Platforması və Ermənistanın Məsafəli Yanaşması

Rusiya, Azərbaycan və Türkiyənin irəli sürdüyü "3+3" (Azərbaycan, Ermənistan, Gürcüstan + Rusiya, İran, Türkiyə) platformasına Ermənistan ehtiyatla yanaşır. Gürcüstan bu platformada iştirak etmədiyi üçün Ermənistan da bu təşəbbüsə tam aktiv qoşulmayıb.

Ermənistan həm də bu formatda Rusiyanın rolunun dominant olmasından narahatdır və balanslı xarici siyasət yürütməyə çalışır.

Ermənistanın "Qafqaz evi" ideyasına münasibəti ehtiyatlı, şərtli və kontekstdən asılıdır. Ermənistan üçün bu cür regional platformalara real qoşulmaq yalnız müəyyən geosiyasi və ikitərəfli məsələlərin (xüsusilə Azərbaycan və Türkiyə ilə) həllindən sonra mümkün görünür. Hazırkı mərhələdə Ermənistan daha çox Qərb vasitəçiliyi ilə aparılan danışıqlara üstünlük verir.

**Nəticə**

"Qafqaz evi" ideyası uzun illərdir bölgənin ictimai-siyasi və mədəni düşüncəsində bir arzu kimi yaşayır. Tarixi, mədəni və coğrafi bağlarla bir-birinə yaxın olan Qafqaz xalqları üçün bu ideya həm birliyin, həm də qarşılıqlı anlaşmanın simvoludur. Lakin reallıq göstərir ki, regiondakı geosiyasi maraqlar, etnik ziddiyyətlər və dövlətlərarası münasibətlər bu arzunun reallaşmasını çətinləşdirir. Buna baxmayaraq, mədəni əməkdaşlıq, iqtisadi inteqrasiya və qarşılıqlı etimadın artırılması istiqamətində atılan addımlar Qafqaz evi ideyasının hələ də canlı olduğunu göstərir.Qafqaz evi ideyası regional inteqrasiya, sülh və qarşılıqlı əməkdaşlıq baxımından nəzəri və strateji əhəmiyyət daşıyan bir yanaşmadır. Lakin bu konsepsiyanın praktik reallaşması bir sıra obyektiv və subyektiv amillərlə əngəllənir. Regionda hökm sürən geosiyasi rəqabət, etnik və dini ziddiyyətlər, tarixi qarşıdurmalar, eləcə də beynəlxalq aktorların ziddiyyətli maraqları bu təşəbbüsün gerçəkləşməsini ləngidən əsas faktorlar sırasındadır [8]. Əldə olunan təhlillər göstərir ki, "Qafqaz evi" ideyası hazırda daha çox normativ səviyyədə – regional sabitliyin və inteqrasiyanın arzuolunan modeli kimi qalır.

Bununla belə, bu ideya tamamilə utopik və ya qeyri-real bir yanaşma deyil. Region ölkələri arasında iqtisadi əməkdaşlıq formatlarının inkişafı, nəqliyyat-kommunikasiya layihələrinin genişlənməsi və mədəni-humanitar əlaqələrin gücləndirilməsi müəyyən perspektivlər və imkanlar yaradır [9]. Əgər bu proseslər siyasi iradə və qarşılıqlı etimad çərçivəsində davam etdirilərsə, "Qafqaz evi" ideyasının mərhələli şəkildə gerçəkləşməsi mümkündür. Beləliklə, Qafqaz evi nə yalnız gerçəkləşən arzu, nə də əbədi xəyal deyil – o, siyasi rasionalizmlə yanaşı, regional dialoq və əməkdaşlığa əsaslanan realist bir perspektiv kimi dəyərləndirilə bilər.

**ƏDƏBİYYAT SİYAHISI:**

**Azərbaycan dilində:**

*1. Arif Məmmədov Qafqazın siyasi tarixi, Bakı, "Elm və Təhsil" nəşriyyatı. 2013. s 240*

*2. MİkayıI Zeynallı "Qafqazda müstəqillik hərəkatları", Bakı, "Nurlan" nəşriyyatı. 2005,257*

*3. İsmayıl Musa Azərbaycanın Xarici Siyasəti, III hissə. BDU 2010*

**Rus dilində:**

*4. Андрей Сушенцов "Геополитика Южного Кавказа". Москва, издательство "Еремеев". 2009, 340*

*5. Сергей Маркедонов "Россия и Кавказ: империя и независимость". Москва, издательство «Алетейя». 2010, 330*

*6. Рауф Миркадыров «Политические кризисы Кавказа в постсоветскую эпоху», Баку, издательство «Восток-Запад». 2017, 348*

*7. Геворгян, В. 2020. Постсоветский Кавказ и региональная идентичность: провалившаяся интеграция? Российский политологический журнал, №3, 42–57.*

**İngilis dilində:**

*8. Cornell,S.E. Autonomy and Conflict: Ethnoterritoriality and Separatism in the South Caucasus – Cases in Georgia. Uppsala University.2002,340*

*9. De Waal, T. The Caucasus: An Introduction. Oxford University Press.2010,145*

*10. Gurbanov, I. Regional Cooperation in the South Caucasus: Challenges and Opportunities. Caucasus Analytical Digest. 2017, (95), 2–5.*

*11. Ismailzade, F. Geopolitical interests and regional integration in the Caucasus. Central Asia and the Caucasus, (4), 120–129. 2005*

*12. German, T. Regional Cooperation in the South Caucasus: Good Neighbours or Distant Relatives?. Caucasus Survey, 1(1), 25–36. 2012*

*13. Dinan, D. Europe Recast: A History of European Union. Palgrave Macmillan. 2012,270*

*14. Moravcsik, A. The Choice for Europe: Social Purpose and State Power from Messina to Maastricht. Cornell University Press. 1998,202*

*15. Suny, R. G. The Making of the Georgian Nation. Indiana University Press. 1994, 256*

*16. Derluguian, G. Bourdieu's Secret Admirer in the Caucasus: A World-System Biography. University of Chicago Press. 2005, 339*

*17. Gevorgyan, V. "Post-Soviet Caucasus and Regional Identity: A Failed Integration?"2020, 320*

*18. Cornell, Svante E. "Small Nations and Great Powers: A Study of Ethnopolitical Conflict in the*

*Caucasus."2001, 210*

*19. Aras, Bülent & Fidan, H. "Turkey and Eurasia: Frontiers of a New Geographic.2009 Imagination."Journal of Balkan and Near Eastern Studies.*

*20. Mikhelidze, "The EU's Policy towards the South Caucasus: Between Geopolitics and Peace Building."*

*Istituto Affari Internazionali. 2015, 140*

*21. Huseynov Vasif . "The South Caucasus at the Crossroads: Conflicts, Alliances and Regional Integration."*

*Topchubashov Center Report. Journal of Democracy, 13(1), 105–119. 2021*

## XÜLASƏ

Cənubi Qafqaz, zəngin tarixi, etnik müxtəlifliyi və geosiyasi mövqeyi ilə dünyanın diqqət mərkəzində olan bir regiondur. Bu ərazi, müxtəlif güc mərkəzləri arasında hər zaman geosiyasi rəqabət və qarşıdurmaların şahidi olmuşdur. "Qafqaz evi" ideyası, regional sülh və əməkdaşlıq perspektivini müzakirə etmək məqsədilə irəli sürülmüş bir modeldir. Bu məqalədə, Qafqaz Evi ideyasının gerçəkləşməsini əngəlləyən və ya dəstəkləyən əsas faktorlar təhlil ediləcək. Regional dövlətlərin müxtəlif strateji maraqları, beynəlxalq güc mərkəzlərinin təsiri və Cənubi Qafqazın geosiyasi əhəmiyyəti, bu təşəbbüsün reallaşmasına olan təsirini daha da aydınlaşdırmağa kömək edəcək. Eyni zamanda, bu ideyanın reallaşmasının mümkün olub-olmaması mövzusunda əsas arqumentlər irəli sürüləcək.

**Açar sözlər:** *etnik müxtəliflik, zəngin tarix, güc mərkəzləri, qarşıdurma, əməkdaşlıq, regional güc, ideya, factor, rəqabət, inteqrasiya.*

**SEFD G.M.Quliyeva**
***Department of "Diplomacy and Processes modern integration" BSU***
***E-mail: gulgun2004@mail.ru***

### The Caucasian House Idea: A Dream Come True or an Eternal Dream

## SUMMARY

The South Caucasus is a region that is at the center of the world's attention with its rich history, ethnic diversity, and geopolitical position. This area has always witnessed geopolitical competition and conflicts between different power centers. The idea of the Caucasus House is a model put forward to discuss the prospects for regional peace and cooperation. This article will analyze the main factors that hinder or support the realization of the Caucasus House idea. The diverse strategic interests of regional states, the influence of international power centers, and the geopolitical importance of the South Caucasus will help to further clarify the impact of this initiative on its realization. At the same time, key arguments will be put forward on the feasibility of this idea.

**Keywords:** *ethnic diversity, rich history, power centers, conflict, cooperation, regional power, idea, factor, competition, integration.*

**д.ф.по п.н. Г.М.Гулиева**
***Кафедра «Дипломатия и процессы современная интеграция» БГУ***
***E-mail: gulgun2004@mail.ru***

### Идея кавказского дома: мечта, ставшая реальностью, или вечная мечта

## РЕЗЮМЕ

Южный Кавказ — регион, который находится в центре внимания всего мира благодаря своей богатой истории, этническому разнообразию и геополитическому положению. Этот регион всегда был свидетелем геополитической конкуренции и конфликтов между различными центрами силы. Идея Кавказского дома — это модель, выдвинутая для обсуждения перспектив регионального мира и сотрудничества. В данной статье будут проанализированы основные факторы, препятствующие или способствующие реализации идеи «Кавказского дома». Разнообразные стратегические интересы региональных государств, влияние международных центров силы и геополитическое значение Южного Кавказа помогут дополнительно прояснить влияние на реализацию этой инициативы. При этом будут высказаны основные аргументы относительно того, осуществима ли эта идея или нет.

**Ключевые слова:** *этническое разнообразие, богатая история, центры силы, конфликт, сотрудничество, региональная власть, идея, фактор, конкуренция, интеграция.*